# Tarixi ədalətin, şanlı qələbənin, Böyük Qayıdışın simvolu

**Vətən müharibəsində mərmilərin şırım açdığı, düşmənin xarabalığa çevirdiyi, igid oğullarımızın qanı tökülən torpaqda tarixi ədalətin, qələbənin, inkişafın, quruculuğun və şərəfli qayıdışın simvoluna çevrilən Ağalıda yeni həyat başlayıb. Vaxtilə göz yaşları içərisində tərk etdikləri ata-baba yurdlarına ağalılılar indi sevinclə, qürurla, şükranlıqla, hədsiz minnətdarlıqla qayıdırlar.**



Ağır müharibədən sonra Ağalı Azərbaycan tarixinin şanlı, qürurlu, qəhrəmanlıq və davamlı inkişaf tarixinin ilk dəyərli mənasına, qətiyyətli sözünə, gücümüzün, qüdrətimizin, bir xalq olaraq birliyimizin çağdaş bir səhifəsinə çevrildi. Ağalı büsatına arxalanaraq cəsarətlə demək olar ki, öz tarixində ilk dəfə olaraq Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın sarsılmaz birliyini, polad kimi əyilməz iradəsini nümayiş etdirdi. Bir daha bütün dünya gördü ki, Azərbaycan otuz ilə yaxın erməni işğalından əziyyət çəkməsinə baxmayaraq, bütün haqsızlıqlara, ikili standartlara mərdliklə sinə gərdi, qələbəyə və şərəfə qadir olduğunu nümayiş etdirdi. Biabırçı şəkildə məğlub olan Ermənistanda isə hələ də böhran hökm sürür, ermənilər bir-birilərini ittiham edir, bir-birilərini xain adlandırırlar.

Qələbədən dərhal sonra azad edilmiş torpaqlarda böyük miqyaslı quruculuq və yenidənqurma işlərinə başlanılıb. Düşmənin daşı daş üstündə qoymadığı yurd yerlərində infrastruktur layihələr həyata keçirilir, sürətli şəkildə quruculuq işləri aparılır. İşğaldan azad edilmiş torpaqlara Böyük Qayıdış Cocuq Mərcanlıdan və Ağalıdan başlayıb. 30 ilə yaxın məcburi köçkünlük həyatı yaşayan kənd sakinləri doğma Ağalıya qayıdanda onların hansı hisslər keçirdiyini sözlə təsəvvür etmək çox çətindir, onların sevincinə heyrətamiz bir duyğu da əlavə olundu ki, ağalılılar dünyanın ən müasir, ən yeni texnoloji üstünlüklərə malik, gözəl və yaraşıqlı bir kənddə yaşayacaqlar. Qeyd edək ki, Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi başa çatıb və 201 nəfərdən ibarət 41 ailə öz doğma yurdlarına qovuşub. Böyük Qayıdış isə davam edir...

Ağalı müasir şəhərsalmanın ən gözəl, heyranedici və mütərəqqi bir nümunəsidir desək, heç də yanılmarıq. "Ağıllı kənd"in ilk təməl daşı qoyulandan sonra ən çox ağalılıları bir sual düşündürürdü, bu necə bir kənd olacaq?! Qeyd edək ki, ilk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı İlham Əliyev tərəfindən qoyulub. Bir il üç ay bundan əvvəl inşaat işlərinə başlanılan və ilk pilot layihə ilə tikilən 200 evdən ibarət gözəl Ağalı öz sakinlərinin ixtiyarına verilib. 30 ilə yaxın yurd həsrəti yaşamış ağalılıları kənd meydanında uzun illər ərzində işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi qarşılayıb. Göründüyü kimi, bunun da çox böyük rəmzi mənası var və həmin kompleksdə ermənilərin uçurtduğu evlərin daşlarının bir hissəsi əsas element kimi istifadə edilib və həmin daşlar üzləşdiyimiz təcavüzün və işğalın acı nəticələrini hər zaman yada salacaq.

Kənd küçələrinin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması, yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri yüksək peşəkarlıqla icra edilib. Ərazidə 200 fərdi yaşayış evi, 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Kəndin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə olunacaq. Bunlardan başqa, kənd meydanında "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri fəaliyyətə başlayıb. Bu da kənd sakinlərinə göstəriləcək dövlət xidmətlərini yüksək şəkildə təmin edəcək. Kənd sakinlərinin "ASAN" və ya DOST xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Bir sözlə, "Ağıllı kənd" əhalisinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə, o cümlədən dövlət xidmətlərinə rahat çıxışı olacaq. Ağalı kəndində "Gilimed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib. Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri, həmçinin aptek, mağaza, kafe, Azercell xidməti də sakinlərə xidmət göstərir. Kənddə yaradılacaq "ağıllı kənd" təsərrüfatı idarəetmə sistemində ən müasir texnoloji yeniliklər tətbiq olunacaq.

Açıq deyək ki, "ağıllı kənd" tikiləndə bəziləri düşünürdü ki, kənd həyatına öyrəşmiş, əkin-səpinlə, heyvandarlıqla, toyuq-cücə saxlamaqla məşğul olan insanlar bu müasir şəhər şəraitində necə yaşayacaqdır?! Əlbəttə, yeni pilot layihədə kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər həyata keçirilir. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin üçün 600 hektar ərazi nəzərdə tutulub. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai ferma qurulacaq. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada əhalinin məşğulluğu təmin ediləcək.

İndi Ağalıda yeni həyat başlayıb. Təzə və müasir, hər cür şəraiti olan evlərə köçən kənd sakinləri bir-birinin evinə qonaq gedir, ötən illərin həsrətindən söz açırlar, xatirələrini bölüşürlər, çay süfrəsi arxasında keçən anlar onların ömrünə-gününə yeni bir bəzək verir, yurd yerinin xoşbəxtliyi çöhrələrində bərq vurur. Ağalılar həyətyanı sahələrini belləyir, gül-çiçək əkir, bir sözlə, öz güzəranlarını qururlar, gələcək planlarından əminliklə, ürəklə və inamla söz açırlar. Uzun illər Bakı şəhəri, Sabunçu rayonunda yataqxanada yaşamış Nuşirəvan Həsənovun ailəsi hər cür şəraiti olan evlə təmin edilib. Həyətini belləyən Nuşirəvan kişi bizi evinə qonaq dəvət edir. Açıq ürəklə, xoş münasibətlə, isti, səmimi sözlərlə dövlətimizin başçısı cənab İlham Əliyevə minnətdarlığını bildirən ev sahibi danışır ki, əvvəllər yataqxanada yaşayanda qohum-əqrəba ağır şəraitdə yaşadığına görə bir-birini qonaq dəvət etməyə utanırdı, sıxıntı keçirirdik. İndi, Allaha çox şükür, Prezidentimizin qətiyyəti, "dəmir yumruğ"u ilə düşmən diz çökdürüldü, igid oğullarımız torpaqlarımızı mənfur düşməndən azad etdi. Bütün şəhid ailələrinə başsağlığı verirəm, qazilərimizə cansağlığı arzulayıram. Evimizdə keçirdiyimiz ilk günü ürəyimizdən gələn xoş duyğularla Ali Baş Komandanımıza dərin minnətdarlığımızı bildirdik, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etdik.

Arzuları, xəyalları gerçəkləşən, bu yerlərdəki xatirələrinə, keçmiş günlərinin xoş ovqatına qovuşan Ağalı sakinlərinin sevincinin həddi-hüdudu yoxdur. Kənd sakinləri bir-birinə gözaydınlığı verir, doğma yurd yerlərinə qayıtdıqları üçün çox xoşbəxt görünürlər. Dördotaqlı evlə təmin edilən Qədir Məmmədovun doğma kəndi ilə bağlı xatirələri bitib tükənmir. Danışır, gah kövrəlir, gah da sevinclə, qürurla, sabaha dərin inamla deyir ki, kənddən çıxanda 27 yaşım var idi. İndi 57 yaşımda kəndimizə qayıtmışıq. Bu günə çox şükür, insanın doğulduğu, uşaqlığı keçdiyi yurd ona çox doğma və əzizdir, ata-baba yurdunun yerini heç nə verə bilməz. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Prezidentimiz, dövlətimiz var olsun!

Kənd sakinlərinin bəxtəvər günlərinin şahidi olduğumuz dəqiqələr elə sürətlə ötüb keçir ki, axşamın düşdüyündən xəbərimiz olmur. Öyrənirik ki, kənd sakinlərinin bir çoxu artıq işlə təmin olunub. Həmsöhbət olduğumuz sakinlər deyirlər ki, Ağalının yeni həyatı çox cazibədar, gözəl və maraqlıdır. Uzun illər bir-birindən ayrı düşən insanların sevinc göz yaşları, uşaqların səs-küyü, qocaların bitib- tükənməyən xatirələri burada başqa bir ovqat yaradır. Dağların arxasına çəkilən Günəşin al-qırmızı şəfəqləri kəndi qızılı rəngə bürüyür. Ağalılılardan xoş təəssüratla ayrılırıq, artıq evlərdə işıqlar yanır, ailələr doğma ocağın başına yığışırlar, Bakıda, Sumqayıtda qalan qohumlara zəng edir, hal-əhval tutur, kənddə keçirdikləri günlər haqqında onlara məlumat verirlər və deyirlər ki, inşallah siz də tezliklə gələcəksiniz. Əminik ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun digər şəhər və kəndləri də tezliklə Ağalı kimi yenidən qurulacaq, bu yerlərin əzəli sahibləri də doğma yurdlarına qayıdaraq xoşbəxt yaşayacaqlar. Bu dərin inam hər bir keçmiş məcburi köçkünün qəlbində gələcək xoş günlərin ritmi üzərində döyünür...

**Salman ALIOĞLU,**
**"Respublika".**